# Treninq keçirilmişdir

**C.Cabbarlı adına Respublika Gənclər kitabxanasında müxtəlif səpkili təbdirlərin keçirilməsi artıq bir ənənə halını almışdır. Fərəh doğuran odur ki, bu tədbirlər həmişə yüksək səviyyədə təşkil olunur.**

**Əlbəttə bu ilk növbədə tanınmış mədəniyyət xadimi Tahir Sadıqovun yüksək təşkilatçılıq bacarığına, vəzifəsinin öhdəsindən ləyaqətlə gəldiyinə dəlalət edir.**

Təbii ki, məsuliyyətlə yanaşılan işin nəticəsi də ürəkaçan və səmərəli olmalıdır. Bu mənada, bu günlərdə burada keçirilən növbəti tədbir də istisna deyildir.

Belə ki, adıçəkilən kitabxanada bu günlərdə Azərbaycan Respublikası Prezidentinin 2008-ci il 6 oktyabr tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında kitabxana-informasiya sahəsinin 2008-2013-cü illərdə inkişafı üzrə Dövlət Proqramı"nın Tədbirlər Planına uyğun olaraq "Respublikanın şəhər (rayon) kitabxanalarının informasiyalaşdırılması, kitabxanalarda yeni informasiya texnologiyaların tətbiqi" mövzusunda treninq keçirilmişdir.

Tədbiri Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin kitabxana sektorunun müdiri Lətifə Məmmədova açaraq iştirakçıları salamladıqdan sonra treninqin keçirilməsinin məqsəd və vacibliyindən danışmış, Dövlət Proqramının qarşımıza qoyduğu vəzifələrdən geniş söhbət açmışdır.

Məlumat üçün bildirək ki, treninqdə 31 şəhər və rayon MKS direktor və direktor müavinləri iştirak etmişdir.

Treninqdə mühazirələri Respublika Mədəniyyət Müəssisələri İşçilərinin Hazırlıq və İxtisasartırma Mərkəzinin mütəxəssisləri aparmışdır.

**Treninqin sonunda iştirakçılara müvafiq sertifikatlar təqdim edilmişdir.**

Ş. ƏKBƏROVA